*Tarix fakültəsi - 105*

**UOT 94(479.24)**

**HİCRAN MAHMUDOVA**
*t.ü.f.d., Bakı Dövlət Universieti*
*Arxeologiya və etnoqrafiya kafedrası*
**hicranmahmudova@mail.ru**
**hicranmahmudova@bsu.edu.az**

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN 105 İLLİK TARİXİNDƏ PROFESSOR HƏVİL HƏVİLOVUN XİDMƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/110-114

*Azərbaycanın XX əsr tarixində özünəməxsus yer tutan, müxtəlif sahələr üzrə görkəmli xadimlər, tədqiqatçılar, əsl vətənpərvər ziyalılar yetişdirmiş Bakı Dövlət Universitetinin bu il 105 illik yubileyi qeyd olunur. Məhz bununla bağlı BDU-nun ənənələrini qorumuş, ömrünü doğma universitetdə elm və təhsilə həsr etmiş müəllimlərimizin xatirəsinin anılması da bu baxımdan bir daha aktuallaşmışdır. Təqdim olunan məqalədə professor Həvil Abdulla oğlu Həvilovun "Etnoqrafiya" elminin tədrisi və tədqiqi ilə bağlı fəaliyyəti, xidmətləri araşdırılmışdır.*

*Araşdırma zamanı Həvil Həvilovun Azərbaycan və dünya xalqlarının etnoqrafiyası, maldarlıq təsərrüfatı, qarşılıqlı yardım formaları və s. problemlərlə bağlı tədqiqatlarının qısa xülasəsi verilmiş, görkəmli alim bir neçə prizmadan: tədqiqatçı – alim, savadlı pedaqoq, qayğıkeş, səmimi dost, yaxşı insan kimi dəyərləndirilmiş, elm yolundakı çətinliklərə baxmayaraq, əsl ziyalı kimi öz simasını qoruyub saxlamağı bacarması təqdir edilmişdir. Qeyd edilmişdir ki, bu 105 ildə Bakı Dövlət Universitetini zirvədə saxlayan məhz belə müəllimlərin qoruyub saxladığı və gənclərə ötürdüyü ənənələrdir.*

*Açar sözlər:* BDU, 105 illik yubiley, Həvil Həvilov, etnoqrafiya, tədqiqatçı, müəllim.



***Giriş.*** Azərbaycanda "Etnoqrafiya" elminin tədrisində özünəməxsus xidməti olmuş professor Həvil Həvilovun 85 illik yubileyi ömrünün yarıdan çoxunu həsr etdiyi Bakı Dövlət Universitetinin 105 illik yubileyi ilə eyni vaxta düşür. Bu 105 illik tarixin 35 ilində Həvil Abdulla oğlu Həvilovun xüsusi xidməti olmuşdur. Həmin müddət ərzində görkəmli professor çöl etnoqrafik materiallarının toplanması və işlənməsi sahəsində geniş təcrübəsi olan alim pedaqoq kimi bildiklərini gənclərə öyrətməyi və sevdirməyi bacarmışdır. Azərbaycanda etnoqrafiya elminin inkişaf perspektivləri, fənnin tədrisi ilə bağlı təklifləri, hazırladığı monoqrafiyalar, proqramlar, mühazirələr müasir dövrdə də bu sahədə çalışan tədqiqatçıların, professor-müəllim heyətinin dərs vəsaitləridir. Xeyli sayda namizədlik və doktorluq dissertasiyalarına rəhbərlik edən Həvil Həvilov həm də yüksək səviyyədə opponentlik etmək bacarığına malik olmuş, yüksəkixtisaslı etnoqraf kadrların hazırlanması işinə töhfələr vermişdir. Elmdə kifayət qədər prinsipial olan Həvil müəllim elə məhz bu keyfiyyətinə görə seçilir və sevilirdi. Onun xidmətləri nəzərə alınaraq, BDU və AMEA rəhbərliyi tərəfindən AMEA-nın müxbir üzvlüyünə namizədliyi irəli sürülsə də, vaxtsız vəfatı ilə bağlı bu məsələ yarımçıq qalmışdır.

***Həvil Həvilovun elmi fəaliyyəti və xidmətləri.*** Həvil Abdulla oğlu Həvilov 10 may 1938-ci ildə Goranboy rayonunun Tapqaraqoyunlu kəndində doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olmuş, 1963-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1964-cü ildə Tapqaraqoyunlu kənd orta məktəbinə tarix müəllimi, 1965-ci ildə direktor təyin edilmişdir.

Həmin dövrdə Tarix fakültəsinin dekanı olmuş Məlik Orucov tələbəlik illərindən savadı və yüksək mədəniyyəti ilə seçilən, müəllimlərin böyük hörmətini qazanmış Həvil Həvilovun 1966-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin aspiranturasına, 1969-cu ildə isə Tarix fakültəsinə (Yeni tarix kafedrası) müəllim kimi işə qəbul olunmasına köməklik göstərmişdir.

1970-ci ildə Qəhrəman Qaraqaşlının rəhbərliyi ilə "Gəncəbasar bölgəsi əhalisinin maddi mədəniyyəti" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Dissertasiyanı yazarkən Gəncəbasarı aranlı-yaylaqlı addım-addım gəzən alim müdrik qocalardan, ağbirçək nənələrdən öyrəndiklərini elm süzgəcindən keçirərək, müqayisəli tarixi-etnoqrafik təhlillər aparmaqla Azərbaycan etnoqrafiya elmində yeni səhifə açmışdır. Gəncəbasar bölgəsinin tədqiqində göstərdiyi xidmətlərlə bağlı Gəncə şəhəri Heydər Əliyev muzeyində Həvil müəllimin adını əbədiləşdirən guşə yaradılmışdır.

Həvil Həvilov 1973-cü ildə ADU (BDU)-nun Yeni tarix kafedrasına baş müəllim vəzifəsinə işə qəbul edilmişdir. Azərbaycanın görkəmli arxeoloqu Məmmədəli Hüseynov tərəfindən BDU-da Arxeologiya və etnoqrafiya kafedrasının yaradılması ilə, o, 1976-cı ildən bu kafedraya baş müəllim, 1979-cu ildə dosent vəzifəsinə təyin edilmişdir.

Həvil Həvilov 1981-ci ildə nəşr etdirdiyi "İnsan, məişət, mədəniyyət" əsərində azərbaycanlıların qədim yaşayış məskənləri və evləri, xalq geyimləri, məişət avadanlığı, onların hazırlanma üsulları ilə bağlı geniş məlumat vermiş, müqayisəli tarixi-etnoqrafik təhlillərlə gənc tədqiqatçılara, tarixçi etnoqraflara xalqımızın ənənəvi mədəniyyəti ilə bağlı sistemli bir istiqamət göstərmişdir [5].

İnsanlıq tarixində maddi istehsal sahəsi və əhalinin əsas məşğuliyyəti kimi yadda qalan maldarlıq mövzusu növbəti mərhələdə Həvil Həvilovun diqqət mərkəzində olmuşdur. İlk baxışda adi təsərrüfat sahəsi kimi görünən mövzu əslində vətənpərvər, milli ruhlu alim tərəfindən təsadüfən seçilməmişdi. Məlumdur ki, ideoloji aparata xidmət edən və azərbaycanlıların köçəri olması ilə bağlı konsepsiya artıq XX əsrin ortalarından təkzib olunmağa başlanmışdı. Ötən əsrin 80-ci illərində hələ də aktuallığını itirməyən bu problemə müraciət edən tədqiqatçı, Azərbaycanda oturaq maldarlıq təsərrüfatının, köçmə yaylaq-qışlaq maldarlığının olmasını zəngin çöl etnoqrafik sorğu və statistik materiallar, yazılı qaynaqlar əsasında dissertasiyasını tamamlamış və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi şurasında müdafiə etmişdir. Belə ki, o, 1989-cu ildə "XIX – XX əsrin əvvəllərində Azərbaycanın maldarlıq təsərrüfatı (tarixi-etnoqrafik tədqiqat)" adlı doktorluq dissertasiyasını keçmiş SSRİ-nin elmi ictimaiyyətinin tanınmış simaları olan tarix elmləri doktoru, MDU-nun Etnoqrafiya kafedrasının müdiri Q.E.Markovun, Qafqaz xalqlarının maldarlıq təsərrüfatının tədqiqatçısı professor A.O.Qrezovun müsbət rəyləri əsasında müdafiə edərək tarix elmləri doktoru adını almışdı [7, s.117].

Görkəmli alim maldarlıq sahəsində əmtəə istehsalının və muzdlu əməyin tətbiq olunmasını faktlarla əsaslandıraraq, Azərbaycanın kənd təsərrüfatında XIX əsrdən kapitalist münasibətlərinin olduğunu göstərmişdir. Həvil Həvilov 1987-ci ildə "Azərbaycanın maldarlıq mədəniyyəti", 1993-cü ildə "Martda mərək" adlı monoqrafiyalarını dərc etdirərək, bu yanaşmanın elmi ictimaiyyət üçün əlçatanlığını təmin etmişdi [2; 6]. O, eyni zamanda öz araşdırmalarında əhalinin qarşılıqlı yardım formaları, torpaqdan istifadə qaydaları, sosial-ictimai quruluşu kimi aktual problemləri üzə çıxara bilmişdi.

Görkəmli alim həm də ciddi, məsuliyyətli pedaqoq olmuşdur. Onun ali məktəblər üçün yazdığı "Etnoqrafiya əsasları" (1974) adlı dərs vəsaiti internet resusrları olmayan, xarici dil, o cümlədən rus dili biliyi zəif olan və xaricdə nəşr olunan kitabları əldə etmək imkanı olmayan tələbələr üçün əvəzsiz vəsait olmuşdur [4]. Məhz bu vəsait sayəsində yüzlərlə gələcək tarixçilər etnoqrafiya elmininin əsas anlayışları, dünya xalqlarının etnoqrafik təsnifatı ilə bağlı ilkin elmi məlumatları öyrənmiş, elmin əsaslarını mənimsəyə bilmişdirlər. Ümumiyyətlə, qeyd edə bilərik ki, "Azərbaycan etnoqrafiyası" (1991), "Dünya xalqlarının etnoqrafiyası" (1999) adlı dərslikləri Azərbaycanda etnoqrafiya sahəsi üzrə yazılan ilk və yeganə dərsliklərdir [1; 3]. "Azərbaycan etnoqrafiyası" kitabında ayrı-ayrı fəsillər şəklində həm maddi, həm də mənəvi mədəniyyətimiz aydın elmi dildə şərh olunmuşdur. Ki-

tabda Azərbaycanın mənəvi mədəniyyəti ilə paralel ənənəvi yaşayış məskənləri, evləri, kənd təsərrüfatı və sənətkarlığı, xalq geyimləri, ənənəvi nəqliyyat vasitələri, yolları, yemək və içkiləri, ailə məişəti ətraflı şəkildə araşdırılmışdır [1]. Bu gün ali məktəblərdə etnoqrafiya elmi bu dərsliklər əsasında tədris olunur.

H.Həvilov 1990-cı ildə Arxeologiya və etnoqrafiya kafedrasının professoru seçilmişdir. 1992-ci ildə həmin kafedranın müdiri vəzifəsinə təyin olunmuş və 2003-cü ildə dünyasını dəyişənə qədər kafedraya rəhbərlik etmişdir. Həvil müəllim kafedra müdiri kimi çalışdığı illərdə universitetin ictimai-siyasi həyatında fəal iştirak etmiş, uzun müddət fakültə Həmkarlar Təşkilatının sədri kimi çalışmışdır. Həvil Həvilov Respublikamızda, eləcə də keçmiş SSRİ-də etnoqrafik və antropoloji tədqiqatların yekunları ilə bağlı konfranslarda iştirak edərək, maraqlı məruzələri ilə tədqiqatçıların rəğbətini qazanmışdır. O, həmçinin 100-ə yaxın sanballı elmi məqalənin də müəllifi olmuşdur.

Həvil Həvilov Bakı Dövlət Universitetinin Tarix fakültəsinin və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi Şuralarının, həmçinin Respublika Ali Attestasiya Komissiyasının üzvü olmuşdur.





Təcrübəli pedaqoq kimi Həvil müəllim çalışqan, elmə həvəsi olan gənclərə yol açmağa çalışırdı. O, təkcə Bakı Dövlət Universitetində deyil, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universitetində də etnoqrafiya fənni üzrə ardıcıl mühazirlələr oxumuş, ciddi və prinsipial olmaqla yanaşı, qayğıkeş müəlim kimi yaddaşlarda qalmışdır. Zahirən ağır təbiətli, son dərəcədə səmimi insan olan Həvil Həvilov tələbə gənclərə izah edirdi ki, Vətənə xidmət etməyin ən yaxşı yolu elmin zirvəsinə yüksəlməkdir. Onun məzmunlu mühazirələrini hələ də yaddaşında saxlayan neçə-neçə tələbələri bu gün Bakı Dövlət Universitetində, digər ali məktəblərdə müəllim kimi çalışır, elmi araşdırmalarla məşğul olurlar.

Tarixçi-etnoqraf olan Həvil müəllim, analitik təhlilə xüsusi diqqət yetirdiyindən, əlavə məşğuliyyət kimi şahmat oyununa üstünlük veririrdi. Bu da onun ətraf, mühit, cəmiyyətlə bağlı fikirlərinə ziyalı baxışını digərlərindən fərqləndirirdi. Təsadüfi deyil ki, həmin dövrdə Tarix fakültəsində tənəffüsdə, boş dərs saatlarında bir çox müəllimlər diskussiyalar, elmi təhlillər, mübahisələr aparmaq, müzakirə etmək üçün məhz Arxeologiya və etnoqrafiya kafedrasına – Həvil müəllimin ətrafına toplaşırdılar.

Əslində kifayət qədər həyat təcrübəsi olduğundan, hər kəsi çox yaxşı tanıyır, səmimiyyətinə, elminə inandığı adamlara həmişə yol açırdı. Həvil müəllimin həyatından cəmi iki epizodu xatırlatmaqla, onun bir insan kimi təmənnasız etdiyi yaxşılıqları göstərmək istərdim. O, 1979-cu ildə arxeoloq, t.e.n. Nəsimi Quliyevin Arxeologiya və etnoqrafiya kafedrasına işə qəbul olunmasına köməklik etmək üçün, dərs bölgüsü zamanı neçə illərdir mühazirə dediyi “İbtidai icma tarixi” fənnindən imtina edərək, dərsin Nəsimi müəllimə verilməsinə təkid etmişdi [7, s.86]. Həvil müəllim sonralar XX əsrin 80-90-cı illərdə qaçqın və məcburi köçkün tələbələrə davamlı köməklik göstərmiş, seminar dərslərində daim aktiv olanları imtahanlardan azad etmişdi.

Nə yaxşı ki, Həvil müəllim mənim də müəllimim olub. O, sadəcə mühazirə müəllimi yox, həm də müstəqil həyata atılarkən qarşılaşacağımız bir çox problemlərin həlli yolllarını öyrədən qayğıkeş insan idi. Həvil Həvilov I kursda “Etnoqrafiyanın əsasları” fənni üzrə mühazirə müəllimim, III kursda Arxeologiya və etnoqrafiya kafedrası üzrə ixtisaslaşma rəhbərim olmuşdu. Azərbaycan ali təhsil

sistemində ilk dəfə Magistratura səviyyəsi tətbiq olunanda 120 nəfərlik qrupdan mən daxil olmaqla cəmi 2 nəfəri kafedraya qəbul etmiş, magistraturada dissertasiya işimə mayak olsun deyə, 1997-ci ildə "BDU-nun Xəbərləri"nin I nömrəsində "Bəzi türk-monqol xalqlarında maldarlıqla bağlı analoji mülkiyyət nişanları" adlı məqalə çap etdirmişdi. Sonradan 2003-cü ildə Arxeologiya və etnoqrafiya kafedrasının əyani aspirantı olarkən, gözləmədiyim anda mənə "Arxeologiya" və "İbtidai icma tarixi" fənləri üzrə mühazirə və məşğələ dərslərini aparmağı təklif etmişdi. Bu gün Həvil müəllimin təmənnasızlıq, insanlıq, elmə, tədris prosesinə ciddi yanaşma kimi açdığı yolda mən də bir müəllim kimi onu hörmətlə anaraq, addımlamağa çalışıram.

***Nəticə.*** 105 ildir ali məktəblərin flaqmanı adının qoruyan Bakı Dövlət Universiteti məhz Həvil Abdulla oğlu Həvilov kimi alimlərinin elmi-pedaqoji fəaliyyəti sayəsində bu adı şərəflə daşımaqdadır. Təkcə Həvil müəllimin monoqrafiya və dərslikləri Azərbaycan elm tarixində ilk olmaqla yanaşı, bu gün də aktuallığını qoruyur, elmi-texniki yeniliklər, məlumatların elektron informasiya sistemi üzərindən əlçatanlığına baxmayaraq, yenə də hamı onun qələmindən çıxan etnoqrafiya dərsliklərini axtarır. Bakı Dövlət Universitetini də özəl edən, fərqləndirən, flaqman kimi zirvədə saxlayan məhz belə müəllimlərimizin əvəzsiz xidmətidir.

ƏDƏBİYYAT

1. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı, Elm, 1991, 256 s.
2. Həvilov H.A. Azərbaycanın maldarlıq mədəniyyəti. Bakı, ADU, 1987, 92 s.
3. Həvilov H.A. Dünya xalqlarının etnoqrafiyası. Bakı, Altay, 1999, 506 s.
4. Həvilov H.A., Sadıxov A.İ. Etnoqrafiya əsasları. Bakı, 1974.
5. Həvilov H.A. İnsan, məişət, mədəniyyət. Bakı, 1991.
6. Həvilov H.A. Martda mərək. Bakı, Azərnəşr, 1993, 122 s.
7. Professor Həvil Həvilov: adı yaddaşlarda əbədi qalan insan. Bakı, Qanun, 2006, 184 s.

**ХИДЖРАН МАХМУДОВА**
*Д.ф. по истории, Бакинский Государсвенный Университет*
*Кафедра Археологии и этнографии*

## ЗАСЛУГИ ПРОФЕССОРА ГАВИЛЯ ГАВИЛОВА В 105-ЛЕТНЕЙ ИСТОРИИ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

В этом году исполняется 105-я годовщина Бакинскому Государственному Университету, который занимает особое место в истории Азербайджана XX века и выпустники которого выдающиеся деятели, исследователи и истинно патриотически настроенные просветители в различных областях. Именно в этой связи становится все более актуальным увековечивание памяти наших преподавателей, сохранивших традиции БГУ и посвятивших свою жизнь науке и образованию в родном вузе. В представленной статье исследовано деятельность и услуги профессора Гавила Абдулла оглы Гавилова, связанные с преподаванием и исследованием науки «Этнография».

В ходе исследования дано краткое изложение исследований Г. Гавилова по изучении этнографии Азербайджана и народов мира, а также по проблемам скотоводчество, форм взаимопомощи и т.д. Здесь выдающийся ученый оценивался с нескольких позиций: исследователь-ученый, грамотный педагог, заботливый, искренний друг, хороший человек. Несмотря на трудности на пути науки, он ценился за то, что сумел сохранить имидж настоящего интеллектуала. Было отмечено, что именно традиции, сохраненные и переданные молодежам такими преподавателями, удерживают Бакинский государственный университет на вершине на протяжении 105 лет.

*Ключевые слова:* БГУ, 105-летие, Гавил Гавилов, этнография, исследователь, преподаватель.

**HIJRAN MAKHMUDOVA**
*PhD, Baku State University Department of Archeology and Ethnography*

## MERIT OF PROFESSOR GAVIL GAVILOV IN THE 105-YEAR HISTORY OF BAKU STATE UNIVERSITY

This year marks the 105th anniversary of Baku State University, which occupies a special place in the history of Azerbaijan in the twentieth century and whose graduates are outstanding figures, researchers and truly patriotic educators in various fields. It is in this regard that it is becoming increasingly important to perpetuate the memory of our teachers who have preserved the traditions of BSU and dedicated their lives to science and education at their native university. The presented article examines the activities and services of Professor Gavil Abdulla oglu Gavilov related to the teaching and research of the science “Ethnography.

During the study, a brief summary of G. Gavilov’s research on the study of the ethnography of Azerbaijan and the peoples of the world, as well as on the problems of cattle breeding, forms of mutual assistance, etc. was given. Here, an outstanding scientist was assessed from several positions: a researcher-scientist, a competent teacher, a caring, sincere friend, a good person. Despite the difficulties on the path of science, he was appreciated for his ability to maintain the image of a true intellectual. It was noted that it is the traditions preserved and passed on to young people by such teachers that have kept Baku State University at the top for 105 years.

*Keywords:* BSU, 105th anniversary, Gavil Gavilov, ethnography, researcher, teacher.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*